UOT: 327
DOI:10.30546/3006-0346.2024.5.83.013

# ÇİNİN RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏKİ MÖVQEYİNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi*
*E-mail: sanubarbabashova@bsu.edu.az*

Çin və Rusiya arasında əlaqələr beynəlxalq münasibətlərin bütün sferalarında – siyasət, iqtisadiyyat, mədəniyyət, hərbi sahə də daxil olmaqla yüksələn xətlə inkişaf etməkdədir. Müharibədən qısa müddət əvvəl Çin və Rusiya dövlət başçılarının birgə bəyanatla çıxış etməsi və iki dövlət arasındakı ticarət əlaqələri bu qənaətə gəlməyə imkan verir. Çində görüşən Rusiya Federasiyası prezidenti Vladimir Putin və Çin Xalq Respublikasının Sədri Si Cinpin NATO-nun genişlənməsinə qarşı ortaq mövqe nümayiş etdiriblər. Çin və Rusiya Tayvanı Çinin bir hissəsi kimi gördüklərini bir daha vurğulayıblar. Rusiya Federasiyası prezidenti Vladimir Putin bildirib ki, "Bizim iki ölkə olaraq münasibətlərimiz həqiqətən də dostluq və strateji tərəfdaşlıq ruhunda görünməmiş bir xarakter daşıyır və ikitərəfli münasibətlər qarşılıqlı inkişafa imkan yaradan, həmçinin inkişafda bir-birini dəstəkləməyə kömək edən münasibətlərin yaxşı nümunəsidir". Birgə bəyanatda tərəflər NATO-nun genişlənməsinə qarşı olduqlarını vurğulayaraq, "soyuq müharibə ideologiyasından əl çəkmək" istəyiblər. Rusiya Federasiyası Tayvanın Çinin bir hissəsi olduğunu qeyd edib və istənilən müstəqillik iddiasına qarşı olduğunu vurğulayıb. Bəyanatda dövlətlərin başqa dövlətlərə "demokratiya standartları" tətbiq etmək hüququ olmadığı vurğulanıb və bildirilib ki, "Hegemonluq yaratmaq üçün bu cür cəhdlər qlobal və regional sabitliyə ciddi təhlükə yaradır"[8]. Çin və Rusiya dövlət başçılarının birgə bəyanatla çıxış etməsi bu iki böyük dövlətin regional və beynəlxalq məsələlərdə mövqeyini ifadə edir.

Mühərbədən əvvəlki müddətdə iqtisadi və ticarət münasibətləri də iki dövlət arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu deməyə əsas verən digər bir məqamdır. Qeyd etmək lazımdır ki, Rusiyanın Ukraynanın Krımı ilhaq etməsindən və 2014-cü ildə sanksiyalar tətbiq olunduqdan sonra iki ölkənin ticarəti 50 faizdən çox artıb və Çin Rusiyanın ən çox məhsul ixrac etdiyi ölkə olub. Çin və Rusiya arasında ümumi ticarət 2021-ci ildə 35,9 faiz artaraq rekord həddə - 146,9 milyard dollara çatıb. Rusiya Çinin neft, qaz, kömür və kənd təsərrüfatı məhsullarının əsas mənbəyinə çevrilib. Rusiya neftinin və qazının Çinə ixracı ilbəil artmaqdadır. Rusiya keçən il gündəlik orta hesabla 1,59 milyon barel və ya Çin idxalının 15,5 faizini təşkil etməklə Səudiyyə Ərəbistanından sonra Çinin ikinci ən böyük neft tədarükçüsü olub. Bu ixracatın təqribən 40 faizi Çin kreditləri hesabına maliyyələşdirilən ümumi uzunluğu 4070 km olan "Şərqi Sibir Sakit Okean" (ESPO) boru kəmərindən keçir. Rusiya eyni zamanda Çinin 3-cü qaz tədarükçüsüdür və 2021-ci ildə Çinə 16,5 milyard kubmetr (bcm) yanacaq ixrac edib ki, bu da ümumi tələbatın təxminən 5 faizini ödəyib. "Sibirin Gücü" boru kəməri ilə tədarük 2019-cu ilin sonlarında başlayıb və 2021-ci ildəki 10,5 milyard kubmetrdən 2025-ci ilə qədər ildə 38 milyard kubmetrə yüksələcəyi gözlənilir. Bu istiqamətdə 30 il müddətində icra olunmaqla dəyəri 400 milyard dollardan çox olan müqavilələr imzalanıb [4].

Rusiya Monqolustan üzərindən Çinə uzanacaq illik gücü 50 milyard kubmetr olan "Sibirin Gücü 2" ikinci qaz kəmərini tikməyi planlaşdırır. Rusiya həmçinin 2021-ci ildə Çinin 2-ci kömür tədarükçüsü olub. 2022-ci ilin fevralında Rusiya Federasiyası dövlət başçısı Vladimir Putin Rusiyanın Çinlə təqribən 117,5 milyard dollar dəyərində yeni neft və qaz sazişlərinin olacağını bildirmişdi [4].

Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra da Çin əməkdaşlığa və tərəfdaşlığa sadiq qalır. Çin rəsmiləri çıxışlarında, bəyanatlarda və sənədlərdə Rusiyanın Ukraynaya hücumlarını "problem" kimi ifadə edir, Rusiya-Ukrayna müharibəsini konkret olaraq müharibə kimi təsvir etmirlər. Digər tərəfdən, Çin Rusiya və Ukrayna arasında problemin həlli ilə bağlı danışıqları dəstəklədiyini açıqlayır. Çinin bəyanatlarında BMT qətnaməsinə və nizamnaməsinin məqsəd və prinsiplərinə istinad edir. Qeyd etmək lazımdır ki, Rusiyanın Ukraynaya hücumlarına Çinin iki əsas yanaşması mövcuddur. Birinci yanaşma Rusiyanın hücumlarına reaksiya verən beynəlxalq ictimaiyyətin qarşısında dayanmamaqdır. Digər yanaşma isə Rusiyanı Qərb dövlətləri qarşısında tamamilə tək qoymamaqdır.

Rusiya-Ukrayna müharibəsinin başlamasından dərhal sonra Çin tez-tez digər ölkələrin daxili işlərinə qarışmamaq kimi yanaşmasını ifadə edir. Tayvan məsələsini Çinin daxili məsələsi hesab edən Çin münaqişənin başlamasından bəri Ukraynadakı prosesləri Tayvanla əlaqələndirməyin mümkün olma-

dığını vurğulayır. Digər tərəfdən, Çin Ukraynadakı problemi iki ölkə arasında mübahisə kimi ifadə edir.

Çinin Rusiyaya dəstəyi beynəlxalq institutlar səviyyəsində də özünü göstərməkdədir. ABŞ və Albaniyanın 25 fevral 2022-ci il tarixində BMT Təhlükəsizlik Şurasına təqdim etdiyi qanun layihəsində Rusiyanın Ukraynaya hücumları pislənilib və onun dərhal Ukrayna ərazisindən çıxarılması tələb olunub. Şurada keçirilən səsvermədə qətnamə layihəsinə Çin Hindistan və Birləşmiş Ərəb Əmirlikləri ilə bitərəf qalıb. Rusiya qanun layihəsinə "yox" deyərək veto hüququndan istifadə edib və beləliklə, qətnamə qəbul edilməyib [7]. Rusiyanın 23 mart 2022-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına (BMT TŞ) təqdim etdiyi Ukraynaya "humanitar yardım" layihəsi tələb olunan 9 səsi almadığı üçün qəbul olunmayıb, 13 ölkə isə bitərəf qalıb [6].

BMT Baş Assambleyasının 193 üzvü Ukraynada insan haqları pozuntularına görə Rusiyanın İnsan Hüquqları Şurasına üzvlüyünün dayandırılmasına səs verib. 93 ölkə Rusiyanın İnsan Haqları Şurasından çıxarılmasını dəstəklədiyi halda, 24 ölkə buna qarşı çıxıb, 58 ölkə bitərəf qalıb. Müharibə başlayandan bəri BMT Baş Assambleyasında qəbul edilən iki Ukrayna qətnaməsinə səsvermədə bitərəf qalan Çin bu dəfə Rusiyanın üzvlüyünün dayandırılmasına "yox" deyib [9].

Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Çinin Rusiyaya dəstəyi iqtisadi sahədə də özünü göstərir. Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Qərb ölkələri Rusiyaya qarşı sərt sanksiyalar tətbiq ediblər. Bunlara neft idxalının və yüksək texnologiyalı məhsulların ixracının qadağan edilməsi daxildir. Bir çox Qərb şirkəti Rusiya ilə əlaqələri tamamilə kəsib və Rusiyanın ABŞ, Böyük Britaniya və Aİ ölkələri ilə ticarəti 2022-ci il ərzində azalıb. Bununla belə, Çinin Rusiya ilə ümumi ticarəti 2022-ci ildə rekord həddə - 190 milyard dollara çatıb. Bu, əvvəlki illə müqayisədə 30 faiz artım deməkdir. Rusiyanın Çindən idxalı 13 faiz artaraq 76 milyard dollara, Çinə ixracı isə 43 faiz artaraq 114 milyard dollara çatıb. Çin hazırda Rusiyanın ən mühüm ticarət tərəfdaşına çevrilib [3].

Rusiya 2022-ci ildə Çinə əvvəlki ilə nisbətən iki dəfə çox maye neft qazı (LPG) ixrac edib. Moskva həmçinin Rusiya və Çin arasındakı "Sibirin Gücü" boru kəməri ilə 2022-ci ildə Pekinə 50 faiz çox təbii qaz çatdırıb. Bundan əlavə, Çin 2021-ci illə müqayisədə Rusiyadan 10 faiz çox xam neft idxal edib. Bu, Rusiyanın keçən il Aİ-dən itirdiyi neft və qaz satışlarının həcmini qismən ödəyir. Rusiya 2021-ci ildə Aİ qaz idxalının 40 faizini qarşılasa da, bu nisbət 2022-ci ildə 15 faiz səviyyəsində qalıb. Bundan əlavə, 2021-ci ildə Aİ-yə neftin 26 faizini satdığı halda, bu nisbət 2022-ci ildə 14 faiz səviyyəsində qalıb. Rusiya hökumətinin illik gəlirlərinin demək olar ki, yarısı neft və qaz satışından əldə edilir. G7 ölkələri, Avropa Birliyi və Avstraliya, Rusiyanın müharibəyə xərcləyə biləcəyi pulun miqdarını azaltmaq məqsədilə dənizdən daşınan Rusiya neftinin qiymətinə dünya miqyasında məhdudiyyət tətbiq edib. Lakin Çin bu həddi yerinə yetirməkdən imtina etdi; O, Rusiya xam neftini bazar qiymətinə alıb. Rusiya Çinə enerji ixracını genişləndirməyi planlaşdırır. İki ölkə "Sibirin Gücü 2" adlı yeni qaz kəmərinin tikintisinə dair razılığa gəlib. Mövcud xətt 2019-cu ildə 400 milyard dollardan çox olan 30 illik müqavilə ilə istifadəyə verilib. Sibirdə yeni qaz kəmərinin nə vaxt istifadəyə veriləcəyi məhkum deyil [4].

Çinin Rusiya-Ukrayna müharibəsi ilə bağlı mövqeyi müharibənin başlanmasının ildönümündə tərəfləri atəşkəsə çağıran 12 maddəlik sənəddə də öz əksini tapmışdır. Belə ki, Çin Xarici İşlər Nazirliyinin dərc etdiyi 12 maddəlik sənəddə Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara son qoyulması, nüvə silahının istifadəsinə yol verilməməsi, mülki şəxslər üçün humanitar yardım dəhlizləri yaradılması və taxıl dəhlizinin açıq saxlanılmasının zəruriliyi öz əksini tapmışdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq bütün ölkələrin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsinin zəruriliyinə diqqət çəkən sənəddə, bərabərliyin təmin edilməsi üçün bütün tərəflərin beynəlxalq hüquq və beynəlxalq münasibətlərin əsas normalarına uyğun olaraq bərabərliyi və ədaləti təmin etmək məqsədilə birgə səy göstərməli olduğu bildirilir. Sənəddə qeyd edilir ki, "Biz Rusiya və Ukraynanı bir-birinə yaxınlaşmağa və birbaşa dialoqu mümkün qədər tez bərpa etməyə təşviq etməli, gərginliyin tədricən azaldılmasını və hərtərəfli atəşkəsi dəstəkləməliyik" [1].

Dialoq və danışıqların Ukrayna böhranından yeganə etibarlı çıxış yolu olduğuna diqqət çəkən sənəddə böhranın sülh yolu ilə həlli istiqamətində bütün səylərin təşviq edilməli və dəstəklənməli olduğu vurğulanıb, sülh danışıqlarının başlanmasına çağırış edilib və həmçinin qeyd edilib ki, Çin bu məsələdə konstruktiv rol oynamağa hazırdır. Sənəddə bir ölkənin təhlükəsizliyinin digər ölkənin təhlükəsizliyi hesabına təmin oluna bilməyəcəyi, regional təhlükəsizliyin isə hərbi blokların genişləndirilməsi ilə təmin oluna bilməyəcəyi və "soyuq

müharibə” məntiqindən əl çəkərək müvafiq cavabların verilməsinin vacibliyi əks olunub [1].

Sənəddə dünyanın uzunmüddətli təhlükəsizliyinin yalnız ümumi, hərtərəfli və əməkdaşlıq əsasında davamlı davamlı təhlükəsizlik yanaşması ilə təmin oluna biləcəyi vurğulanır və bildirilir ki, “Avropa və Asiyada sülh və sabitliyi təmin etmək üçün milli təhlükəsizliyini digər dövlətlərin təhlükəsi üzərində qurma cəhdlərinin qarşısı alınmalı, bloklar arasında qarşıdurmaya imkan verməməli, balanslı, səmərəli və davamlı Avropa təhlükəsizlik arxitekturasının qurulmasını təşviq etməliyik." Sənəddə bildirilir ki, müharibə və münaqişələr nəticəsində yaranan humanitar böhranların aradan qaldırılması, mülki əhaliyə və yaşayış məntəqələrinə qarşı hücumların qarşısının alınması, müharibə bölgələrində mülki əhalinin təhlükəsizliyi üçün humanitar dəhlizlərin yaradılması, vətəndaşlara məhdudiyyətsiz girişin təmin edilməsi üçün bütün təşəbbüslər təşviq edilməli və dəstəklənməli, humanitar yardım fəaliyyətləri üçün sərhədsiz imkanlar təmin edilməli və daha böyük humanitar böhranların ortaya çıxmasının qarşısı alınmalıdır [1].

Sənəddə müharibə edən tərəflər beynəlxalq humanitar hüquqa riayət etməyə, mülki şəxslərin və hərbi əsirlərin hüquqlarını qorumağa çağırılır. Sənəddə atom elektrik stansiyaları kimi dinc nüvə obyektlərinə hücumlardan qaçınmaq və nüvə təhlükəsizliyi konvensiyalarına və digər beynəlxalq qaydalara riayət etməklə insan tərəfindən törədilən nüvə fəlakətindən qaçmaq barədə xəbərdarlıq edilir və nüvə silahları ilə bağlı qeyd olunur ki, "Nüvə silahından istifadə oluna bilməz, nüvə müharibəsi aparıla bilməz. Nüvə silahından istifadə və istifadə təhlükəsinə qarşı çıxmalıyıq. Nüvə silahının yayılmasının qarşısını almalıyıq və nüvə böhranından qaçmalıyıq". Sənəddə Çinin bütün kimyəvi və bioloji silahların hazırlanması və istifadəsinə qarşı olduğu da bildirilib [1].

Müharibə səbəbi ilə Rusiyaya qarşı tətbiq edilən sanksiyalara toxunan sənəddə qeyd olunur ki, “Birtərəfli sanksiyalar və həddindən artıq təzyiqlər nəinki problemləri həll edə bilmir, həm də yeni problemlərin ortaya çıxmasına səbəb olur. Biz icazə verilməyən hər hansı birtərəfli sanksiyalara qarşı çıxmalıyıq”. Sənəddə ABŞ və Avropa ölkələrinin sanksiyalarla bağlı mövqeyi tənqid edilib və qeyd edilir ki, “Müvafiq ölkələr birtərəfli sanksiyaları və ekstraterritorial yurisdiksiyadan sui-istifadəni dayandırmalı və Ukrayna böhranını sakitləşdirmək üçün səy göstərməli, inkişaf etməkdə olan ölkələrə öz iqtisadiyyatlarını inkişaf etdirmək və xalqın rifahını yüksəltmək üçün uyğun şərait yaratmalıdır. Sənəddə qeyd olunur ki, bütün tərəflər hazırkı dünya iqtisadi sisteminin sağlam fəaliyyətinə riayət etməyə borcludurlar və dünya iqtisadiyyatının siyasiləşdirilməsinə, onun hökmranlıq alətinə və silahına çevrilməsinə onun təsirlərinin yayılmasına qarşı çıxmalıdırlar. Böhran enerji, maliyyə, taxıl ticarəti və nəqliyyat sahələrində əməkdaşlığı pozaraq qlobal iqtisadi canlanmaya zərər verəcəkdir [1].

Çin prezidenti Si Cinpin Rusiya-Ukrayna müharibəsi başlayandan bəri ilk dəfə Ukrayna prezidenti Vladimir Zelenski ilə də görüşüb. Çin Xarici İşlər Nazirliyinin bəyanatına görə, prezident Si ukraynalı həmkarı Vladimir Zelenski ilə telefon danışığı aparıb. Daha sonra onlar arasında görüş olub. Si Cinpin müharibədən sonra dəfələrlə Rusiya prezidenti Vladimir Putinlə görüşsə də, hətta Moskvaya rəsmi səfəri baş tutsa belə, Vladimir Zelenski ilə heç bir görüş olmayıb. Görüş zamanı bütün əlaqədar tərəflərin sakit və təmkinlə hərəkət etməli və böhranı birlikdə idarə etməli olduğunu vurğulayan dövlət başçısı Si Cinpin bildirib ki, "Dialoq və danışıqlar yeganə etibarlı yoldur. Nüvə müharibələrində qalib yoxdur" [2].

Çinin Ukrayna məsələsində həmişə sülhün tərəfdarı olduğunu və sülh danışıqlarını yeganə nizamlanma metodu kimi dəstəklədiyini bildirən Si Cinpin Çinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsini Ukrayna və digər ölkələrə göndərərək münaqişənin siyasi həlli üçün bütün tərəflərlə danışıqlar aparacağını bildirib. Çinin Ukrayna böhranına səbəb olmadığını və münaqişənin tərəfi olmadığını təkrar edən edən dövlət başçısı Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının daimi üzvü və məsuliyyətli bir dövlət kimi vəziyyətdən öz xeyrinə istifadə etməyəcəyini, tamaşaçı kimi qalmayacağını bildirmişdir. Si Cinpin bildirib ki, "Rasional fikirlər və səslərin artması ilə fürsətdən istifadə etmək və böhranın siyasi həlli üçün əlverişli şərait yaratmaq vacibdir" [2].

Rusiya prezidenti Vladimir Putin ümumi seçkilərdəki qələbəsindən sonra beşinci müddətində ilk xarici səfərini Çinə edib. Putinin Çinə səfəri liderin son altı ayda bu ölkəyə ikinci səfəridir. Bu fakt Rusiya Federasiyasının Çinlə əməkdaşlığa verdiyi önəmi bir daha sübut edir. Çin mətbuatına açıqlama verən Vladimir Putin, Çin Xalq Respublikasının sədri Si Cinpinə “milli maraqlara və dərin qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlığın qurulmasında göstərdiyi köməyə görə” təşəkkür edib və ilk səfərini məhz bu səbəbdən Çinə etdiyini vurğulayıb [3].

Rusiya Federasiyası dövlət başçısı Vladimir Putinin iki ölkənin "sərhədlərinin olmadığını" bəyan etdiyi və münasibətləri dərinləşdirəcəyi gözlənilən səfərin ilk günündə iki lider strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair birgə bəyannamə imzalayıblar. Dövlət başçıları Vladimir Putin və Si Cinpin iki ölkə arasında imzalanan müqavilələrdən sonra açıqlama verib. Vladimir Putin həmkarı ilə görüşlərində "bütün məsələləri müzakirə etdiklərini" bildirib və qeyd edib ki, "Rusiya Çinə ərzaq ixracatını artırıb. Çin avtomobil istehsalçılarını bazarımızda salamlayırıq. Enerji sahəsi prioritetlərimizdən biridir. Enerji sahəsində əməkdaşlığı dərinləşdirmək üçün konkret planlarımız mövcuddur" [3].

İki ölkənin ticarətində yuan və rublun payının 90 faizi keçdiyini bildirən Vladimir Putin enerji gündəminə toxunaraq, iki ölkə arasında nüvə əməkdaşlığını dərinləşdirdiklərini bildirib. Vladimir Putin çıxışına belə davam edib: "Bir çox qlobal və regional problemlərə yanaşmamız oxşardır. Ölkələrimiz qlobal institutların depolitikləşdirilməsinə çağırır. Hər ikimiz müstəqil xarici siyasət yürüdürük. Biz çoxqütblü dünya üçün çalışırıq. Qapalı hərbi-siyasi ittifaqlara yer olmayan Asiya-Sakit Okean regionunda etibarlı və uyğun təhlükəsizlik arxitekturasının qurulmasına çalışmaq lazımdır. "Biz inanırıq ki, bunlar çox zərərlidir və bu cür ittifaqların yaradılması qeyri səmərəlidir". Rusiyanın Ukraynaya müdaxiləsinin də müzakirə olunduğu görüşdə Vladimir Putin sülh təşəbbüslərinə görə həmkarına təşəkkür etdiyini bildirib. Vladimir Putin həmçinin bəyan edib ki, Çin-Rusiya münasibətlərinin dərinləşməsi "beynəlxalq siyasətdə əsas balanslaşdırıcı amildir" [3].

Birgə bəyannamənin imzalanmasından sonra çıxış edən Çin Kommunist Partiyasının sədri Si Cinpin bildirib ki, "Çin və Rusiya qarşılıqlı siyasi etimadı daha da dərinləşdirəcəkdir". Qlobal siyasətin çoxqütblülüyünə toxunan Si Cinpin çıxışında "Çin və Rusiya çoxqütblü dünyanın yaranmasına dəstək verəcəklər. Çin və Rusiya qonşular arasında yeni növ münasibətlərin və əlaqənin nümunəsidir. "Çin və Rusiya beynəlxalq hüquqa əsaslanan dünya nizamını müdafiə edir" deyə bildirib. Çin dövlət başçısı Si Cinpin qeyd edib ki, onlar "Ukrayna böhranının siyasi həllini tapmağa razılaşıblar". Səfər zamanı Rusiya Federasiyası dövlət başçısı Vladimir Putin xüsusilə vurğulayıb ki, Çin və Rusiya arasındakı münasibətlər beynəlxalq arenada sabitliyin əsas elementlərindən biridir. Çin dövlət mediasına açıqlamasında Putin Ukrayna böhranının həllində oynadığı rola görə Çinə təşəkkür edib. Bu prosesdə Çin Ukraynadakı münaqişənin sülh yolu ilə həlli üçün 12 təklifdən ibarət siyahı dərc edib və soyuq müharibə məntiqindən imtina etməyi tələb edib [3].

NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib ki, Çin Rusiyaya verdiyi dəstəklə Ukrayna müharibəsini daha da alovlandırır və Qərblə münasibətlərini riskə atır. "Welt am Sonntag" qəzetinə müsahibəsində Yens Stoltenberq Çinin bir tərəfdən Qərb ölkələri ilə yaxşı münasibətlər qurmaq istədiyini, eyni zamanda "Avropada müharibəni qızışdırdığını" bildirib və bu ikisinin eyni zamanda mümükünsüz olduğunu bildirib. Rusiyanın raket, tank və döyüş təyyarələrində istifadə etdiyi maşın hissələri, mikroelektronika və digər texnologiyaların getdikcə daha çox Çin tərəfindən təmin edildiyini vurğulayan Y. Stoltenberq, Pekinin dəstəyinin Rusiyanın Ukrayna müharibəsini davam etdirməsi üçün "həyati əhəmiyyətli" olduğunu bildirib [5].

Xarici siyasətində iqtisadi maraqlarına prioritet verən Çin bu çərçivədə ticarət əlaqələrini davam etdirmək üçün xarici bazarlara, iqtisadi dəhlizlərə və təhlükəsizliyə əhəmiyyət verir. Ukraynadakı müharibə bu kontekstdə Çinin təşəbbüslərinə ziyan vurur. Ukraynadakı qeyri-sabitlik, həmçinin Çinin son illərdə xarici siyasətdə vurğuladığı harmonik dünya yanaşmasını pozur. Eynilə, Rusiyanın Ukraynaya hücumu ölkələr arasında dinc inkişafa nail olmaq yanaşmasına mənfi təsir göstərir. Digər tərəfdən Ukraynadakı müharibə səbəbindən Aİ ilə münasibətlərinin korlanmasını istəmir. Çünki Avropa İttifaqı bazarı Çinin qəbul etdiyi iqtisadiyyat mərkəzli siyasətləri baxımından əhəmiyyətlidir. Bununla belə, Çin-Aİ münasibətləri müharibənin təsirinə də müəyyən qədər məruz qalır. Rusiya təhlükəsi, enerji böhranı və qeyri-sabitliyi ciddi şəkildə yaşayan Aİ Çindən Rusiyaya qarşı daha konkret və aydın addımlar gözləyir. Digər tərəfdən, Rusiya özünün keçdiyi bu çətin dövrdə Çini öz strateji tərəfdaşı kimi qiymətləndirir. Çinin Mərkəzi Asiyaya marağının artması Rusiya üçün problem hesab olunsa belə, Vladimir Putin Çinin "Bir Kəmər və Yol" təşəbbüsü ilə Rusiyanın Avrasiya İqtisadi İttifaqı (AİI) arasında dərinləşən əməkdaşlığın iki ölkənin maraqlarına xidmət edəcəyini düşünür.

Beləliklə, Çin Rusiyanın Ukraynaya hücumları ilə bağlı çox incə balans yaratmağa çalışır. Bu tarazlığı qurmaqla yanaşı, onu saxlamaq da çətinliklər yaradır. Çinin beynəlxalq ictimaiyyət, ABŞ-Aİ və Rusiya ilə əlaqələri çərçivəsində qurmağa çalışdığı balans bu aktorların münasibətindən asılı deyil. Bu səbəbdən də Çinin qurduğu tarazlığın gələcəkdə

beynəlxalq arenadakı şəraitdən və tərəflərin addımlarından təsirlənəcəyi mümkün görünür.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. China’s Position on the Political Settlement of the Ukraine Crisis, 2023.0224. https://www.fmprc.gov.cn/mfa_eng/zxxx_662805/202302/t20230224_11030713.html*

*2. China’s Xi speaks with Zelensky for first time since Russia’s invasion of Ukraine, 2023.04.26. https://edition.cnn.com/2023/04/26/europe/xi-jinping-zelensky-phone-call-intl/index.html*

*3. China’s Xi Jinping rolls out red carpet for close friend Putin in strong show of unity, 2024.05.16, https://edition.cnn.com/2024/05/15/china/putin-xi-meeting-china-intl-hnk/index.html*

*4. China-Russia trade has surged as countries grow closer, 2022.03.01, https://www.reuters.com/markets/europe/china-russia-trade-has-surged-countries-grow-closer-2022-03-01/*

*5. NATO secretary general says China is fueling war in Europe by supporting Russia, 2024.27.05. https://www.aa.com.tr/en/world/nato-secretary-general-says-china-is-fueling-war-in-europe-by-supporting-russia/3230674*

*6. UN General Assembly votes to suspend Russia from the Human Rights Council, 2022.04.07. https://news.un.org/en/story/2022/04/1115782*

*7. Russia blocks Security Council action on Ukraine, 25 february 2022, https://news.un.org/en/story/2022/02/1112802*

*8. Russia-China Joint Statement On International Relations, February 4, 2022, https://china.usc.edu/russia-china-joint-statement-international-relations-february-4-2022*

*9. Security Council Fails to Adopt Text Demanding Civilian Protection, Unhindered Humanitarian Access in Ukraine, as 13 Members Abstain, 2022.23.03, https://press.un.org/en/2022/sc14838.doc.htm*

### The impact of China's position in the Russian-Ukrainian war on international relations

Since the beginning of the Russian-Ukrainian war, the reaction of China –Russia's main partner and one of the major powers in international relations, was one of the most notable moments. The Russian-Ukrainian war is considered the biggest war and the most serious crisis that Europe has faced since the end of the Second World War. For this reason, many heads of state, politicians and researchers began to think about the impact of the Russian-Ukrainian war on the structure of the international system. From this point of view, it is of great importance to study the position and approach of China – one of the main actors of the international system.

**Keywords:** *China, Russia-Ukraine war, European Union, NATO, Taiwan, bloc.*

### Влияние позиции Китая в российско-украинской войне на международные отношения

С началом российско-украинской войны реакция Китая – главного партнера России и одной из крупнейших держав в международных отношениях – стала одним из самых заметных моментов. Российско-украинская война считается крупнейшей войной и самым серьезным кризисом, с которым столкнулась Европа после окончания Второй мировой войны. По этой причине многие главы государств, политики и исследователи начали задумываться о влиянии российско-украинской войны на структуру международной системы. С этой точки зрения имеет большое значение изучение позиции и подхода Китая – одного из главных акторов международной системы.

**Ключевые слова:** *Китай, российско-украинская война, Европейский союз, НАТО, Тайвань, блок.*

### Xülasə

Rusiya-Ukrayna müharibəsinin başlamasından bəri Rusiyanın əsas tərəfdaşı və beynəlxalq münasibətlərin böyük faktorlarından olan Çinin müharibəyə qarşı reaksiyası xüsusilə diqqətçəkən məqamlardan biri idi. Rusiya-Ukrayna müharibəsi İkinci Dünya müharibəsinin başa çatmasından bəri Avropanın qarşılaşdığı ən böyük müharibə və ən ciddi böhran hesab olunur. Bu səbəbdən bir çox dövlət başçıları, siyasətçilər və tədqiqatçılar Rusiya-Ukrayna müharibəsinin beynəlxalq sistemin strukturuna təsiri haqqında düşünməyə başlayıblar. Bu nöqteyi nəzərdən beynəlxalq sistemin əsas aktorlarından biri olan Çinin mövqeyinin və yanaşmasının öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *Çin, Rusiya-Ukrayna müharibəsi, Avropa İttifaqı, NATO, Tayvan, blok.*